# AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANLARI



**Əliyev Əsgər Ələkbər oğlu**

8 noyabr 1974-cü ildə Lənkəran rayonunun Ləj kəndində anadan olub. Təhsilini Haftoni qəsəbə orta məktəbində alıb. 1992-ci ildə Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin tank-artilleriya fakültəsinə daxil olub.

17 mart 1995-ci ildə bir qrup vəzifə hərisi silahlanaraq hakimiyyəti zorla devirmək üçün dövlət çevrilişinə əl atdı. İqtidar bu qarşıdurmanın sülh yolu ilə nizama salınması üçün danışıqlar aparmağı təklif etdi. Lakin qarşı tərəf müdrik çağırışa məhəl qoymadı. Milli ordunun əsgərləri silahlı dəstənin qarşısını almaq üçün son nəfəslərinədək dövlətçiliyimizi müdafiə etdilər. Həmin döyüşdə kursant Ə.Əliyev dörd yaralını güllə yağışı altından çıxarmağa müvəffəq oldu. Axırıncını xilas etmək istəyərkən ikinci güllə Əsgər Əliyevin cavan ömrünə son qoydu.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Əsgər Əliyev ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Lənkəran rayonunda adına park var. Büstü qoyulub, xatirə lövhəsi vurulub, Haftoni qəsəbə tam orta məktəbində "Xatirə guşə"si yaradılıb.



**Əliyev Ehtiram İsrayıl oğlu**

1972-ci il avqustun 1-də Ucar rayonunun Qazyan kəndində anadan olub. 1987-ci ildə burada səkkizinci sinfi bitirdikdən sonra Bakı Maşınqayırma Texnikumuna daxil olub. 1992-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarına çağırılaraq Naxçıvan MR-da Sədərək, Batabat yaylağında erməni silahlı birləşmələrinə qarşı aparılan döyüşlərdə iştirak edib.

E.Əliyevin xidmət etdiyi hərbi hissə 1993-cü ilin iyul ayında Ağdama göndərilir. O, Ağdam, Füzuli, Cəbrayıl, Tərtər rayonlarında aparılan hərbi əməliyyatlarda əsl rəşadət göstərir.

1993-cü il avqustun 23-də düşmən ağır texnika ilə Füzuli rayonunun Əhmədbəyli kəndinə hücuma keçir. Ordumuz erməni yaraqlılarını geri çəkilməyə məcbur edir.

1994-cü il yanvarın 5-də ordumuz əlavə qüvvə alaraq yenidən hücuma keçir. İki gün davam edən bu ağır döyüşdə yaralansa da, yoldaşlarını tək buraxmır, müalicə olunduqdan sonra yenidən döyüş dostlarının yanına qayıdır.

E.Əliyev 1996-cı ilin avqust ayında ordudan tərxis olunub. Hazırda Nəqliyyat Nazirliyinin Bakı Beynəlxalq və Şəhərlərarası Avtovağzalında sərnişin daşımanın təşkili şöbəsinin rəisi vəzifəsində çalışır.

İki övlad atasıdır.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Ehtiram Əliyevə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.



**Əliyev İlham Müzəffər oğlu**

5 may 1961-ci ildə Gədəbəy rayonunda anadan olub. Orta məktəbi 1978-ci ildə bitirib. 1980-ci ildə hərbi xidmətə çağırılıb. Ordudan tərxis olunduqdan sonra Gədəbəy rayonunda Kommunal Təsərrüfatı İdarəsində, sonra isə İsmayıllıda mexanikləşdirilmiş dəstədə çalışıb. 1983-cü ildə İsmayıllı rayon DİŞ-də işə qəbul edilib.

İ.Əliyev 1985-ci ildə Bryansk Xüsusi Orta Milis Məktəbinə daxil olub. 1987-ci ildə Gədəbəy rayonunda sahə müvəkkili, Gəncə şəhər DİŞ-də sahə müfəttişi, sonra isə cinayət-axtarış bölməsində əməliyyatçı vəzifələrində çalışıb.

19 avqust 1990-cı ildə leytenant İ.Əliyev torpaqlarımızın müdafiəsinə göndərilib. Fasiləsiz olaraq erməni yaraqlıları tərəfindən atəşə tutulan Qazax rayonunun Aşağı Əskipara kəndində 11 nəfərlik dəstə ilə məktəbin binasında özünü mövqe tutan İlham quldurların kəndə soxulmasına mane olur. Bu döyüşdə ağır yaralanan İ.Əliyevi Qazax rayon xəstəxanasına çatdırsalar da onu xilas etmək mümkün olmur.

Evli idi. Bir övladı var.

"Qırmızı Ulduz" ordeninə layiq görülüb.

Azərbaycan Respublikası Prezidentinin 6 iyul 1992-ci il tarixli 831 saylı fərmanı ilə İlham Əliyev ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Gədəbəy rayonunda dəfn edilib. Gədəbəy şəhərindəki 1 nömrəli tam orta məktəb Milli Qəhrəmanın adını daşıyır. Məktəbin önündə büstü qoyulub.



**Əliyev İmamverdi Barat oğlu**

1 oktyabr 1950-ci ildə İmişli rayonunun Qulubəyli kəndində anadan olub. 1969-cu ildə Kürdmahmudlu kənd orta məktəbini bitirib. 1970-ci ildə hərbi xidmətə gedir. 1972-ci ildə ordudan tərxis olunur və Bakı şəhəri Yasamal Rayon Daxili İşlər Şöbəsində sürücü-milis nəfəri kimi əmək fəaliyyətinə başlayır. 1978-ci ildə Bakı Xüsusi Milis Məktəbinin kursantı olan İ.Əliyev təhsilini başa çatdırdıqdan sonra İmişli rayon DİŞ-nin mühafizə bölməsində baş inspektor vəzifəsində çalışır.

1991-ci ildə torpaqlarımızın bütövlüyü uğrunda qanlı döyüşlər gedəndə o, İmişli RDİŞ-nin bir qrup əməkdaşı ilə Cəbrayıla ezam olunur. Çevikliyi, döyüş əzmi ilə fərqlənən İ.Əliyev ağır döyüşlərdə düşmənin 4 tankını sıradan çıxarır.

15 noyabr 1991-ci ildə Hadrut rayonunun Şaqax kəndinə hücuma keçən erməni yaraqlılarına qarşı döyüşdə xüsusi rəşadət göstərən İmamverdi Əliyev qəhrəmancasına həlak olur.

Ailəli idi. İki övladı var.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə İmamverdi Əliyevə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

İmişli rayonunda dəfn edilib.

Adına İmişli rayonunda küçə var. Qulubəyli kənd tam orta məktəbi də Milli Qəhrəmanın adını daşıyır. İmişli Rayon Daxili İşlər Şöbəsi binasının önündə büstü qoyulub.



**Əliyev Nadir Alış oğlu**

30 iyul 1962-ci ildə Ağdam rayonunun Əliağalı kəndində anadan olub. 1977-ci ildə kənd məktəbinin 8-ci sinfini, 1981-ci ildə Bakı Politexnik Texnikumunu bitirib. 1983-cü ildə əsgəri xidmətini başa vurub, Bakı Tunel Tikinti İdarəsində əmək fəaliyyətinə başlayıb. 1984-cü ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsinə daxil olub. 1986-cı ildə bir neçə tələbə ilə birlikdə Moskva DTK-nın Dzerjinski adına Ali Hərbi Məktəbinə göndərilib. Nadir Əliyev 1991-ci ildə təhsilini əla qiymətlərlə başa vuraraq Bakıya dönür. Milli Təhlükəsizlik Nazirliyinə işə qəbul edilir. Öz xahişilə onu döyüş bölgəsinə göndərirlər. N.Əliyev Qarabağ və ətraf rayonlarda işlədiyi dövrdə cəsur döyüşçü, əməliyyatçı və həssas bir insan kimi əhalinin rəğbətini qazanır.

1993-cü il iyul ayının əvvəllərində düşmən Qiyaslı kəndi istiqamətindən böyük qüvvə ilə Ağdam şəhərinə girməyə can atırdı. Baş leytenant N.Əliyev əlavə qüvvələrin göndəriləcəyi ümidi ilə öz dəstəsinə irəli atılmağı əmr edir. Qeyri-bərabər döyüş başlanır. Elə bu an atılan güllələrdən biri Nadiri haqlayır. O, ana yurdu Ağdamın qoynunda əbədiyyətə qovuşur.

Ailəli idi. İki övladı var.

Azərbaycan Respublikası Prezidentinin 9 oktyabr 1994-cü il tarixli 218 saylı fərmanı ilə Nadir Əliyev ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

Suraxanı rayonundakı 282 nömrəli orta məktəb Milli Qəhrəmanın adını daşıyır. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulub.



**Əliyev Rövşən Nəriman oğlu**

30 avqust 1972-ci ildə Bakı şəhərində anadan olub. 1989-cu ildə Xətai rayonundakı 254 nömrəli orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Politexnik İnstitutunun (indiki Texniki Universitet) maşınqayırma fakültəsinə daxil olub.

R.Əliyev 1991-ci ilin mayında könüllü olaraq orduya yazılıb. Sonra Ağdamda yaradılmış milli müdafiə taboruna üzv olub. Sırxavənd, Qazançı kəndlərinin düşməndən azad edilməsində yaxından iştirak edib.

Ermənilər 13 may 1992-ci ildə bizim əsgərləri Dəhraz kəndindən çıxarmaq məqsədilə Abdal-Gülablı kəndinə hücum edirlər. Rövşən Əliyev yoldaşlarına köməyə gedir. Düşmən zərbələrə tab gətirməyərək geri çəkilir. Tələbə-döyüşçü Ağbulaq-Dəhraz əməliyyatlarında xüsusi fərqlənir.

14 iyun 1992-ci ildə azğınlaşmış düşmən yenidən böyük qüvvə ilə Dəhraz kəndinə hücum edir. Əsgərlərimiz mühasirəyə düşür. Rövşən yaralı yoldaşlarının düşmən əlinə keçməməsi üçün böyük şücaət göstərir, onları döyüş meydanından uzaqlaşdırmağa müvəffəq olur. Növbəti dəfə komandirini xilas edərkən başından yaralanır. Bir qədər sonra o, gözlərini əbədi yumur.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 saylı fərmanı ilə Rövşən Əliyevə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

Təhsil aldığı 254 nömrəli tam orta məktəbə Milli Qəhrəmanın adı verilib.



**Əliyev Yavər Yaqub oğlu**

27 iyun 1956-cı ildə Bakı şəhərində anadan olub. Pirallahı adasında 235 nömrəli orta məktəbi bitirdikdən sonra Kremençuq Aviasiya Məktəbinə daxil olub. Yavər Zabrat hava limanında işə düzəldiyi ilk gündən bacarığı və peşəkarlığı ilə diqqəti cəlb edir. İdarənin rəhbərliyi onu əvvəl Mİ-4, Mİ-2 vertolyotlarına pilot, sonra Mİ-8 vertolyotuna ikinci pilot və daha sonra komandir təyin edir.

Ermənistanın Azərbaycana qarşı apardığı müharibədə Yavər və onun dəstəsi əsl fədakarlıq göstərərək, nəyə qadir olduqlarını sübut edir. Çətin və təhlükəli uçuşlarla onlar əhalini dağ rayonlarından çıxarır, Qarabağın ayrı-ayrı bölgələri ilə hava körpüsü yaradırlar.

Yavər Əliyev Qarabağa Mİ-24 vertolyotunda dəfələrlə uçuşlar edib. Aşağı yüksəklikdə uçaraq düşmən mövqelərinə ağır zərbələr endirib. Bu uçuşlar zamanı ermənilər çoxlu itkilər verib. 1992-ci il fevralın 29-u Yavərin sonuncu uçuşu olub.

Ailəli idi. İki övladı atasının peşə yolunu davam etdirir.

Azərbaycan Respublikası Prezidentinin 6 iyul 1992-ci il tarixli 831 saylı fərmanı ilə Yavər Əliyevə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

Oxuduğu 235 nömrəli tam orta məktəb onun adını daşıyır.



**Əliyev Yunis Əsgər oğlu**

9 oktyabr 1958-ci ildə Goranboy rayonunun Qızılhacılı kəndində anadan olub. 1973-cü ildə buradakı orta məktəbin səkkizinci sinfini bitirib, təhsilini Dəliməmmədli şəhərindəki 102 nömrəli texniki-peşə məktəbində davam etdirib. Yunis 1976-cı ildə hərbi xidmətə çağırılır. Tacikistanda əsgəri borcunu yerinə yetirdikdən sonra bir neçə il Rusiyada yaşayır. Sonra Vətənə qayıdaraq əmək fəaliyyətini rayon mərkəzindəki kərpic zavodunda davam etdirir.

Yunis Əliyev 1992-ci ildə Vətənin müdafiəsinə qalxanların cərgəsinə qoşularaq Goranboy rayonunda yaradılmış ikinci batalyonun tərkibinə yazılır. İlk döyüşü Ağdərə bölgəsində olur. Həmin döyüşdə ayağından yaralanan Yunis müalicə olunduqdan sonra yenidən cəbhəyə yollanır.

1992-ci il mayın 5-də Goranboy rayonunun Talış kəndi uğrunda gedən döyüşdə Yunis Əliyev erməni gülləsinə tuş gəlir.

Ailəli idi. İki övladı var.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə Yunis Əliyevə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Doğma kəndi Qızılhacılıda dəfn edilib. Kənd 3 nömrəli uşaq bağçası onun adını daşıyır. Goranboy rayonunda büstü qoyulub.



**Əliyev Yusif Əliyusif oğlu**

2 dekabr 1969-cu ildə Bakının Qobustan qəsəbəsində anadan olub. Qəsəbədəki 223 nömrəli orta məktəbi bitirdikdən sonra Qobustan Avtomobil Nəqliyyatı İdarəsində əmək fəaliyyətinə başlayıb. 1988-ci ildə ordu sıralarına çağırılıb, hərbi xidmətini Sverdlovsk şəhərində çəkib. 1990-cı ildə ordudan tərxis olunaraq Bakıya qayıdan Y.Əliyev polis orqanlarında işləməyə başlayır.

Dağlıq Qarabağ münaqişəsinin başladığı ilk gündən torpaqlarımızın müdafiəsində fəal iştirak edir.

1991-ci ilin fevralında Yusif Əliyev Goranboyda ilk döyüş sınağından çıxır. Fevralın 24-də 500-ə yaxın erməni quldru rayonun Mənəşid kəndinə hücuma keçir. Yusifin də olduğu polis dəstəsi öz əlverişli mövqelərini qoruyub saxlamağa çalışır. Lakin düşmən xeyli itki versə də, geri çəkilmək istəmir. Bunu görən Y.Əliyev 14 nəfərdən ibarət bir qrupla əlbəyaxa döyüşə atılır və düşmənləri pərən-pərəndir.

1991-ci il sentyabrın 14-də düşmən Buzluq kəndinə hücuma keçir. Ölüm-dirim savaşına girən əsgərlərimizin sursatı tükənir. Yusif güllə yağışı altında Buzluğa sursat çatdırmağa müvəffəq olsa da bu ona həyatı bahasına başa gəlir.

Ailəli idi.

Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı fərmanı ilə Yusif Əliyevə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Ağsu rayonunun Rəhimli kəndində dəfn edilib. Qobustan qəsəbəsindəki 195 nömrəli tam orta məktəb Milli Qəhrəmanın adını daşıyır. Məktəbdə büstü qoyulub.



**Əmirov Faiq İsfəndiyar oğlu**

22 iyun 1975-ci ildə Zaqatala rayonunun Bəhmədli kəndində anadan olub. 1992-ci ildə doğma kəndlərində orta məktəbi bitirib. 2 iyul 1993-cü ildə Zaqatala Hərbi Komissarlığı tərəfindən ordu sıralarına çağırılıb. Füzuli, Tərtər, Ağdərə uğrunda gedən qanlı döyüşlərdə iştirak edib. Qızğın döyüşlərin birində ayağından yaralanıb. Hərbi hospitalda müalicə olunaraq yenidən döyüş bölgəsinə qayıdıb. Cəbhədə atəşkəs elan edildikdən sonra onların batalyonu öz əvvəlki yerinə qaytarılır.

17 mart 1995-ci ildə Faiqin xidmət etdiyi batalyon da dövlət çevrilişinə cəhdin qarşısının alınmasında iştirak edir. Bütün döyüş yoldaşları kimi o da arzu edirdi ki, qarşıdurma qansız-qadasız ötüşsün. Çox təəssüf ki, bu mümkün olmur. Nahaq qurbanlar verilir. Həmin qurbanlardan biri də qəlbi Vətən üçün, xalq üçün qurub-yaratmaq eşqi ilə döyünən Faiq olur.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Faiq Əmirova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bəhmədli kənd qəbiristanlığında dəfn edilib.

Zaqatala şəhərindəki küçələrdən biri onun adını daşıyır.

*Məlumatların hazırlanmasında "Heydər Əliyev və Azərbaycanın milli qəhrəmanları. Müqəddəs amal" kitabından istifadə olunub.*